## Esmira Güneş

### Əbədi Yarım

Nə yaxşı tanıdım, sevdim səni mən,
Mənasız ömrümün mənası oldun.
Boş qalan qəlbimə sevgini salıb,
Köçüb ürəyimin içinə doldun.

Səninlə birlikdə tutdum həyatdan,
Enişli-yoxuşlu yolları keçdik.
Seçim çox olsa da hey önümüzdə,
Hər zaman şərəfli bir ömür seçdik.

Sən mənim gecəmə açılan sabah,
Ən gözəl duamın cavabısan yar.
Bəlkə də kasıbıq amma yanında,
Gizlicə çin olur hər an arzular.

Ad günün mübarək, ömür yoldaşım
Yaxşı ki, varımsan, yaxşı ki, varsan.
Ölüncə əlini buraxmaram ki....
Sən mənim qəlbimə əbədi yarsan.